23 dekabr 2014-cü ilə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 04 dekabr 2014-cü il tarixli, 16 saylı müraciət üzrə

# RƏYİ

**Bakı şəhəri** **04 dekabr 2014-cü il**

Mən, ekspert qrupunun üzvü Bəxşeyiş Əsgərov 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsindən Qızılağac bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Kərimli Kərim Fazil oğlunun dairə seçki komissiyası tərəfindən namizədliyinin qeydiyyatından qanunsuz imtina edilməsinə və bununla əlaqədar qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsinə dair Mərkəzi Seçki Komissiyasına 04 dekabr 2014-cü il tarixdə daxil olmuş 16 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Şikayət məktubu 26.11.2014-cü il tarixdə, yəni 71 saylı Masallı kənd DSK-nın 24 noyabr 2014-cü il tarixli 17/63 saylı qərarı elə həmin gün K.F.Kərimliyə təqdim edildikdən iki gün sonra poçtla göndərilmiş və 04.12.2014-cü il tarixdə MSK-ya daxil olmuşdur. Başqa sözlə, müraciət "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqından Təlimat"ın 4.1.2-ci bəndinə tələblərinə riayət edilməklə göndərilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və yuxarıda qeyd olunan Təlimatın tələblərinə uyğun və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

Araşdırma prosesində ərizəçi ilə əlaqə yaradılmış, araşdırmada iştirak etmək hüququ barədə ona məlumat verilmişdir.

Vətəndaş K.F.Kərimli şikayətini onunla əsaslandırmışdır ki, 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 71 saylı Masallı kənd seçki dairəsindən Qızılağac bələdiyyəsi üzrə namizədliyini irəli sürmüş, həmin bələdiyyə ərazisində seçicilərin imzasını toplayaraq imza vərəqəsini və ona əlavə edilmiş digər zəruri sənədləri DSK-ya təqdim etmiş, ancaq

dairə seçki komissiyası əsassız olaraq onun namizəd kimi qeydə alınmasından imtina etmişdir.

Dairə seçki komissiyası K.F.Kərimlinin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, təqdim edilmiş imza vərəqəsində imza edən 44 nəfər şəxsin şəxsiyyət vəsiqələrinin heç birinin verilmə tarixi, eləcə də 44 seçici imzasının heç birinin qoyulma tarixi qeyd edilməmişdir. Buna görə də imzalar etibarsız hesab edilmiş və seçici imzalarının sayı namizədin qeydə alınması üçün kifayət etməmişdir.

Seçki Məcəlləsinin 60.4-cü maddəsi ilə bu Məcəllənin 60.2.2 və 60.2.4-cü maddələrində göstərilən səbəblər olduqda, səhvlər və pozuntular müvafiq sənədlərdə namizəd tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası tərəfindən 24 saat müddətində namizədin bu haqda xəbərdar edilməsi barədə norma nəzərdə tutulur.

71 saylı Masallı kənd DSK-nın sədri H.Xanməmmədovun izahatından, DSK-da tərtib olunmuş 22 noyabr 2014-cü il tarixli aktdan, K.Kərimli ilə aparılan telefon danışığına dair 05 dekabr 2014-cü il tarixli aktdan məlum olur ki, həqiqətən DSK Qızılağac bələdiyyəsindən namizədliyi özü tərəfindən irəli sürülmüş K.Kərimlini qanunvericiliyin tələblərinə uyğun şəkildə xəbərdar etməmişdir. Belə ki, DSK-da K.Kərimlinin telefon nömrəsinin olmasına baxmayaraq qeydiyyat üçün təqdim etdiyi sənədlərdə uyğunsuzluqların olması barədə məlumat onun özünə bilavasitə deyil, həmkəndlisi vasitəsilə çatdırılmışdır. K.Kərimlinın sözlərinə görə DSK-ya dəvət olunması barədə məlumat ona gec verilmişdir. Xəbəri gec verən həmkəndlisi bunu onun keyfini pozmaq istəməməsi ilə əsaslandırmışdır. O, noyabrın 24-də DSK-ya gələndə isə artıq namizədliyinin qeydə alınmasından imtina edildiyini öyrənmişdir.

Araşdırma zamanı o da müəyyən edilmişdir ki, K.F.Kərimlinin namizəd kimi qeydə alınması üçün təqdim etdiyi bir ədəd imza vərəqəsi namizədin özü tərəfindən səliqəli şəkildə tərtib olunmuş, yalnız namizədin müdafiəsi üçün imza atan seçicilərin şəxsiyyət vəsiqələrinin verilmə tarixi və imzaların qoyulma tarixi istisna olmaqla, bütün digər rekvizitlər düzgün doldurulmuşdur.

Seçki Məcəlləsinin 57.4-cü maddəsində göstərilir ki, seçici imza vərəqəsində imza edərkən soyadını, adını, atasının adını, doğum tarixini, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini, imza etdiyi tarixi göstərir. Bu maddə həmçinin imza edən seçicilər barəsində qeyd edilməsi zəruri hesab olunan, yuxarıda qeyd olunan məlumatların imza toplayan şəxs tərəfindən imza vərəqələrinə daxil edilə bilməsini də nəzərdə tutur.

Seçki Məcəlləsinin yuxarıda istinad edilən 60.4-cü maddəsində qeyd edilir ki, bu Məcəllənin 60.2.2 və 60.2.4-cü maddələrində göstərilən səbəblər olduqda, səhvlər və pozuntular müvafiq sənədlərdə namizəd tərəfindən düzəlişlərin edilməsi yolu ilə aradan götürülə bilərsə, müvafiq seçki komissiyası namizədi 24 saat müddətində bu haqda xəbərdar edir və onun tərəfindən müvafiq düzəlişlər edildikdən sonra namizədi qeydə alır.

Göründüyü kimi, 71 saylı Masallı kənd dairə seçki komissiyası Seçki Məcəlləsinin 60.2-ci və 60.4-cü maddələrinin tələblərinin tətbiqi ilə bağlı düzgün nəticəyə gəlməmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 05 dekabr 2014-cü il tarixli rəylər və protokoldan görünür ki, bələdiyyə üzvlüyünə namizəd K.F.Kərimlinin namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imza vərəqəsində olan 44 seçici imzasının hamısı etibarlı hesab edilmişdir.

Seçki Məcəlləsinin 215.1.5-ci maddəsinə əsasən, əhalisi 4.999-dan çox olan ərazidə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş 30 seçici imzası toplamalıdır. Müvafiq icra hakimiyyəti orqanının təqdim etdiyi arayışla təsdiq olunur ki, Qızılağac bələdiyyəsinin əhatə etdiyi ərazidə əhalinin sayı Seçki Məcəlləsinin yuxarıda qeyd edilən maddəsi ilə müəyyən edilmiş say həddindədir.

Namizədin təqdim etdiyi imza vərəqəsində etibarlı hesab edilən imzaların sayı qeydə alınması üçün kifayət etdiyindən, onun namizəd kimi qeydə alınması üçün hüquqi əsaslar yaranmışdır.

Beləliklə, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsasların olması müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət əsaslı olduğundan təmin edilməli, 71 saylı Masallı kənd seçki dairəsi dairə seçki komissiyasının K.F.Kərimlinin Qızılağac bələdiyyəsi üzvlüyünə namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 24 noyabr 2014-cü il tarixli 18/65 saylı qərarı ləğv edilməli, o, həmin seçki dairəsindən bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmalıdır.

Yuxarıda göstərilənlər əsas götürülərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 215.1.5-ci, 216.1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına vədairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət vəmüraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında” Təlimatın 1-7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 71 saylı Masallı kənd seçki dairəsindən Qızılağac bələdiyyəsi üzrə namizədliyi özü tərəfindən irəli sürülmüş Kərimli Kərim Fazil oğlunun 26

noyabr 2014-cü il tarixli, 16 saylı müraciəti əsaslı olduğu üçün təmin edilməli, onun namizəd kimi qeydə alınmasından imtinaya dair müvafiq dairə seçki komissiyasının 24 noyabr 2014-cü il tarixli, 18/65 saylı qərarı ləğv edilməli, Kərimli Kərim Fazil oğlu bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmalıdır.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Bəxşeyiş Əsgərov**